| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | CHEM481, Kimyanın didaktikası, 4 AKTS |
| | **Departament** | Kimya |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim** | Aytac Məmmədova |
| | **E-mail:** | aytaj.mammadova@khazar.org |
| | **Telefon:** | - |
| | **Mühazirə otağı/Cədvəl** | Bakıxanov korpusu |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | EDU101 | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas ədəbiyyatlar**<br>1. Əliyev R.Y. Kimyanın tədrisi metodikası və didaktikası. – Bakı: Elm, 2012.<br>2. Əhmədov B.Ə. Təlim metodları və didaktika. – Bakı: Təhsil, 2010.<br>3. Hüseynzadə R.L., Əzizova Z.M., Əliyev S.H., Verdiyeva Ü.M. Pedaqogika. – Bakı, 2021.<br>4. Məmmədova A.Z. Kimyanın tədrisində müasir təlim texnologiyaları. – Bakı, 2012.<br>**Elektron resurslar**<br>5. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Kimya fənni üzrə kurikulum materialları.<br>Elektron resurs: www.curriculum.edu.az<br>6. Science Education Resources. Science education materials.<br>Elektron resurs: www.scienceeducation.org | |
| **Kursun təsviri** | Fənn kimya tədrisinin didaktik əsaslarını, məqsəd və vəzifələrini, məzmun və struktur xüsusiyyətlərini, eləcə də müasir pedaqoji yanaşmaları öyrənməyə yönəlmişdir. Kurs çərçivəsində kimyanın didaktikasının predmeti və elmi əsasları, kimya tədrisində didaktik prinsiplər, təlim üsulları və metodları, pedaqoji texnologiyalar, problemli və tədqiqatyönümlü yanaşmalar, kimya dili və kimyəvi eksperimentin tədrisdə rolu, tədris vasitələri, dərsin təşkili formaları, sinifdənkənar işlər, interaktiv təlim və təlim nəticələrinin qiymətləndirilməsi məsələləri sistemli şəkildə öyrənilir.<br>Fənn tələbələrdə kimya tədrisinə didaktik baxışın formalaşdırılmasına, müasir təhsil tələblərinə uyğun pedaqoji fəaliyyət bacarıqlarının inkişafına, təlim prosesinin planlaşdırılması və təşkilinə yaradıcı | |

| | | | |
|---|---|---|---|
| | yanaşmanın təşəkkülünə, həmçinin gələcək müəllimlik fəaliyyətinə elmi-metodik hazırlığın təmin olunmasına xidmət edir. | | |
| **Kursun məqsədləri** | ▪ Kimyanın didaktikasının predmeti, vəzifələri və elmi əsasları haqqında sistemli biliklər formalaşdırmaq;<br>▪ Kimya tədrisində didaktik prinsiplərin və qanunauyğunluqların mahiyyətini mənimsətmək;<br>▪ Kimya təliminin məqsəd, məzmun, metod və vasitələrinin qarşılıqlı əlaqəsini izah etmək;<br>▪ Müasir pedaqoji texnologiyalar və interaktiv təlim metodlarının kimya tədrisində tətbiq imkanlarını göstərmək;<br>▪ Problemli, tədqiqatçı və şəxsiyyətyönümlü təlim yanaşmalarını mənimsətmək;<br>▪ Kimya dili və kimyəvi anlayışların formalaşdırılması prosesinin didaktik əsaslarını öyrətmək;<br>▪ Kimya dərsinin və digər təlim formalarının didaktik baxımdan təşkili bacarıqlarını inkişaf etdirmək;<br>▪ Kimyəvi eksperimentin didaktik funksiyalarını və təlim prosesində rolunu əsaslandırmaq;<br>▪ Tədris vasitələri və İKT texnologiyalarından istifadə bacarıqlarını formalaşdırmaq;<br>▪ Kimya tədrisinin keyfiyyətinə nəzarət və qiymətləndirmə üsullarını öyrətmək. | | |
| **Təlim nəticələri** | **Kursun sonunda tələbələr:**<br>Kimyanın didaktikasının elmi əsaslarını, kimya tədrisində didaktik prinsipləri, müasir təlim metod və texnologiyalarını, kimya dili və kimyəvi eksperimentin tədrisdə rolunu, tədris vasitələrini və kimya tədrisinin təşkili formalarını mənimsəyirlər.<br>Kimya dərslərini didaktik tələblərə uyğun planlaşdırır və təşkil edir, müasir təlim metod və texnologiyalarından, interaktiv və problemli yanaşmalardan istifadə edir, kimyəvi eksperiment və tədris vasitələrini məqsədyönlü tətbiq edir, təlim nəticələrini qiymətləndirə və təlim keyfiyyətinə nəzarət edə bilirlər. | | |
| **Tədris metodları** | Məşğələ | | **x** |
| | Qrup müzakirəsi | | **x** |
| | Praktiki tapşırıqlar | | **x** |
| | Praktiki məsələnin təhlili | | **x** |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Yoxlama (quiz)** | Semester müddətində 2 dəfə | 10 |
| | **Təqdimatlar** | Final imtahanından əvvəl | 10 |
| | **Davamiyyət** | Hər dərs | 5 |

<table>
<tr><td rowspan="4"></td><td>Aktivlik</td><td>Hər dərs</td><td>5</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Aprel</td><td>30</td></tr>
<tr><td>Final imtahanı</td><td>İyun</td><td>40</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Qaydalar<br>(Tədris siyasəti və davranış)</td><td colspan="3">✓ Fənnə aid ümumi xarakterli məlumatlar interaktiv dərs zamanı tələbələrə çatdırılır və mövzuların elektron materialları tələbələrə təqdim olunur.<br>✓ Fənnin sillabusu tədris prosesinin başlanmasının ilk 10 günü ərzində tələbələrə təqdim edilir.<br>✓ Yeni mövzular dərsin və mövzunun xüsusiyyəti nəzərə alınmaqla əyani vasitələrin (PPT, video fayllar və digər rəqəmsal resurslar) nümayişi və interaktiv izah üsulları ilə təqdim olunur.<br>✓ Dərsin təşkilində müxtəlif tədris metodlarından (müzakirə, qrup işi, təqdimat, problem əsaslı öyrənmə və s.) istifadə edilir. Bu metodlar tələbəyönümlü yanaşmanı gücləndirir və tələbələrin təlim prosesində fəal iştirakını təmin edir.<br>✓ Aralıq və yekun imtahanlardan əvvəl tələbələrin mövzuları mənimsəmə səviyyəsi qısa yoxlama tapşırıqları (quizlər) vasitəsilə qiymətləndiriləcəkdir.<br>✓ Hər dərs zamanı əvvəlki mövzuların mənimsənilməsi şifahi və yazılı sorğular, müzakirələr və qısa tapşırıqlar vasitəsilə qiymətləndirilir.<br>✓ Dərslər qarşılıqlı ünsiyyət, sual-cavab, müzakirə və praktik fəaliyyətlər əsasında təşkil olunaraq interaktiv öyrənmə mühiti yaradılır.<br>✓ Semestrin sonunda tələbələrin ortaq qiyməti çıxarılacaq (Fəallıq).<br>Təqdimatlar:<br>✓ Seçilmiş mövzu və plan üzrə tələbənin təqdimat hazırlaması və auditoriyaya təqdim etməsi<br>✓ Verilmiş mövzu üzrə axtarış aparılması və əldə etdikləri məlumatlar əsasında10-15 dəqiqəlik təqdimat<br>Davamiyyət:<br>✓ Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmamalıdır. Davamiyyət 5 bal ilə qiymətləndirilir .<br>Yoxlama (quiz)<br>✓ Keçilmiş mövzular üzrə tələbələrin biliklərinin və mövzuların mühüm ideyalarının dərk edilməsini yoxlamaq üçün açıq sual, test üzrə iş, tapşırıq növlərindən istifadə edilir. Quiz semestr ərzində 2 dəfə keçirilir və hər bir quiz 5 balla qiymətləndirilir.<br>İmtahanlar:</td></tr>
</table>

| | |
|---|---|
| | ✓ Aralıq və final imtahanları qapalı və açıq suallardan ibarət olacaq. Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | 16.02.2026 | Sillabusun izahı<br>Kimyanın didaktikası. Predmeti və elmi əsasları | Müəllim tərəfindən hazırlanan materialın müzakirəsi |
| 2. | 23.02.2026 | Kimyanın tədrisində didaktik prinsiplər | [2] s 22-46<br>[4] s 140-147 |
| 3. | 02.03.2026 | Kimya fənninin təlim üsulları | [1] s 55-80<br>[4] s 5-25 |
| 4. | 09.03.2026 | Kimyanın tədrisində kimya dili spesifik vasitə kimi. | [1] s 90-115 |
| 5. | 16.03.2026 | Kimyanın tədrisində pedaqoji texnologiyalar | Müəllim tərəfindən hazırlanan materialın müzakirəsi |
| 6. | 23.03.2026 | Kimyanın öyrədilməsində problemli yanaşma | [4] s 25-45 |
| 7. | 30.03.2026 | Təlim metodları (alqoritimli, problemli)<br>Quiz-1 | [3] s 272-279 |
| **Aralıq imtahanı** | | | |
| 8. | 06.04.2026 | Təlim metodları (proqramlı, tədqiqatçı) | [4] s 60-76<br>[2] s 95-125 |
| 9. | 13.04.2026 | Kimyada tədris vasitələri | [1] s 120-150 |
| 10. | 20.04.2026 | Dərs-kimyanın tədrisinin təşkilinin əsas forması kimi | Müəllim tərəfindən hazırlanan materialın müzakirəsi |
| 11. | 27.04.2026 | Kimyanın tədrisində kimyəvi eksperiment | [1] s 160-195 |
| 12. | 04.05.2026 | Kimyanın tədrisində sinifdənkənar işlər | [1] s 200-220<br>[3] s 344-354 |
| 13. | 11.05.2026 | Kimya fənni üzrə təhsil proqramı. Kimya fənni üzrə məzmun xətləri. | Müəllim tərəfindən hazırlanan materialın müzakirəsi |
| 14. | 18.05.2026 | İnteraktiv təlim | [4] s 76-90 |
| 15. | 25.05.2026 | Kimya tədrisinin keyfiyyətinə nəzarət<br>Quiz-2 | [1] s 323-337<br>www.curriculum.edu.az |
| **Final imtahanı** | | | |